7 fevral 2017-ci il, çərşənbə axşamı XALQ QƏZETİ

# Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı

**№ 25** **Bakı şəhəri, 3 fevral 2017-ci il**

**“Azərbaycan Respublikası Dövlət gerbinin təsviri olan möhürlərin və sənəd blanklarının hazırlanması, istifadə olunması, saxlanılması və məhv edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkki-zinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** “Azərbaycan Respublikası Dövlət gerbinin təsviri olan möhürlərin və sənəd blanklarının hazırlanması, istifadə olunması, saxlanılması və məhv edilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** “Dövlət gerbi olan möhürdən istifadə etmək haqqında” Ümumazərbaycan Mərkəzi İcraiyyə Komitəsinin və Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1935-ci il 20 fevral tarixli, “Möhür və ştamplar hazırlamaq və onlardan istifadə etmək haqqında” ASSR Xalq Komissarları Sovetinin 1935-ci il 6 noyabr tarixli, 1167 nömrəli, “Möhürlərin, çek kitabçalarının və rəsmi blankların dövlət və kooperativ təşkilatlarında və idarələrində saxlanması qaydası haqqında” Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1936-cı il 17 iyul tarixli 762 nömrəli və “Azərbaycan yazısının latın əlifbasından rus əlifbası qrafikasına keçməsi ilə əlaqədar olaraq, ştampların və möhürlərin dəyişdirilməsi haqqında” Azərbaycan SSR Nazirlər Sovetinin 1939-cu il 15 noyabr tarixli 5218 nömrəli qərarları ləğv edilsin.

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.cabmin.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***